2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun və Tofiq Həsənovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 6 noyabr 2015-ci il tarixli 144 və 146 saylı müraciətlər üzrə

**BİRGƏ RƏYİ**

Bakı şəhəri 6 noyabr 2015-ci il

2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 71 saylı Masallı kənd seçki dairəsi üzrə deputatlığa qeydə alınmış namizəd Fərzulla Xasay Səfər oğlu və 89 saylı Göyçay-Ağdaş seçki dairəsi üzrə deputatlığa qeydə alınmış namizəd Hacılı Namiq Mahmud oğlu 6 noyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına müraciət edərək müvafiq seçki dairələri üzrə səsvermənin nəticələri haqqında dairə seçki komissiyalarının yekun protokollarının etibarsız sayılmasını, həmin seçki dairələri üzrə səsvermənin baş tutmamasının və ərizəçilərə münasibətdə Avropa İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi Konvensiyasına dair 1 saylı protokolun 3-cü maddəsinin pozulmasının tanınmasını xahiş etmişlər.

Biz, ekspert qrupunun üzvləri Qabil Orucov və Tofiq Həsənov həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdik:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və “Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın nəzərdə tutduğu şikayətvermə müddətində verilmişdir.

Araşdırma ilə müəyyən edilmişdir ki, mahiyyəti üzrə eyni məzmunlu müraciətlərə Mərkəzi Seçki Komissiyasının iclasında 5 noyabr 2015-ci il tarixində baxılmış və 42/303 saylı qərar qəbul edilmişdir. Göründüyü kimi, ərizəçilərin iddialarının əsassızlığı barədə səlahiyyətli orqanların preyudisiyal əhəmiyyət kəsb edən qərarı qüvvədədir. Ona görə də tələbin təmin edilməsindən imtina edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə g ə l d i k :**

1. 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 71 saylı Masallı kənd seçki dairəsi üzrə deputatlığa qeydə alınmış namizəd Fərzulla Xasay Səfər oğlunun və 89 saylı Göyçay-Ağdaş seçki dairəsi üzrə deputatlığa qeydə alınmış namizəd Hacılı Namiq Mahmud oğlunun müvafiq olaraq 144 və 146 saylı 6 noyabr 2015-ci il tarixli müraciətləri əsassız olduğundan təmin edilməsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvləri Qabil Orucov

Tofiq Həsənov